# Fərrux yüksəkliyinin azad edilməsi hərbi-strateji zəfərdir

***Azərbaycan Ordusunun 44 gün davam edən İkinci Qarabağ müharibəsində qələbəsi uğurlu hərbi-strateji planlaşdırmanın nəticəsidir. Döyüşlər Azərbaycan qoşunlarının Qarabağın ən mühüm yaşayış məntəqələrindən biri olan Şuşa şəhərini azad etməsindən sonra başa çatdı. 2020-ci il sentyabrın sonu-oktyabrın əvvəllərində, Azərbaycanın hərbi əməliyyatlarının çox erkən mərhələsində bu strateji şəhərin ələ keçirilməsi və Ermənistanın kapitulyasiyası ilə nəticələnəcəyi mümkün görünmürdü. Çoxlarına elə gəlirdi ki, bu döyüşlər əvvəlkilər kimi ən çox Azərbaycanın bir sıra strateji əhəmiyyətli yüksəkliyi və bir neçə kvadratkilometr ərazini azad etməsi ilə başa çatacaq. Lakin strateji yüksək mövqedə yerləşən Şuşa şəhərinin azad edilməsi ilə Azərbaycan 30 illik münaqişəyə son qoydu. Hazırda ordumuz bəzi strateji yüksəklikləri ermənilərdən ələ keçirərək hərbi üstünlüyünü daha da gücləndirir, Qarabağı terror ünsürlərindən təmizləyir.***

Bu gün Azərbaycanın daha bir ərazisində dövlət bayrağı dalğalanır. Xocalı rayonunun Fərrux kəndi Azərbaycanın tam nəzarətindədir. Fərrux kəndi Xankəndi şəhərindən 32, Əsgəran qəsəbəsindən isə 16 kilometr uzaqlıqda yerləşən dağətəyi ərazidir. İnzibati olaraq Xocalı rayonuna daxildir. Kəndin yaxınlığında Fərrux yüksəkliyi və eyni adlı göl var. Ehtimal edilir ki, Fərrux adı atəşpərəstlik dövründən qalmadır. Onun uğurlu, müqəddəs, mübarək, işıqlı insan, müdrik, cəsarətli, həqiqəti yalandan ayıran kimi mənaları var.

1988-ci ildə Qarabağ hadisələri başlayandan Fərrux kəndində yuva qurmuş əsasən İrəvandan, Livandan, Suriyadan gəlmiş erməni silahlıları, muzdluları Ağdamın Cinli, Əlimədədli və digər yaxın kəndləri atəşə tutur, dinc insanları qətlə yetirir və yaralayırdılar. Münaqişənin ilk illərində dəfələrlə ermənilər Fərruxdan Cinli kəndinə hücum etmişdilər. Münaqişə dövründə kənd və yaxınlıqdakı Fərrux yüksəkliyi xüsusi strateji əhəmiyyətə malik bir yer idi. 1993-cü ildən 2020-ci ilə kimi Ermənistan silahlı qüvvələrinin işğalı altında olmuşdu. Lakin 2022-ci il martın 24-də Azərbaycan Ordusunun bölmələri kəndə daxil olmaqla işğala son qoydular.

Bəs Fərruz yüksəkliyinin əhəmiyyəti nədədir? Mütəxəssislərin sözlərinə görə, Fərrux kəndi ermənilərin yaşadığı, Rusiya sülhməramlılarının nəzarət etdiyi Xankəndinə Azərbaycan hərbçilərinin yolunu açdığı üçün əhəmiyyətlidir. Fərrux yüksəkliyinin geri qaytarılması Xankəndinin iki addımlığında olmaq deməkdir və həmin ərazinin strateji əhəmiyyəti məhz bundan ibarətdir. Eyni zamanda, kənd ətrafındakı yüksəkliklərin alınması ilə Ağdam şəhəri və rayonun 9 kəndi düşmənin vizual nəzarətindən çıxarılmışdır, Xankəndi-Ağdərə avtomobil yoluna vizual nəzarət əldə olunmuşdur. Hərbi mütəxəssislərin sözlərinə görə, Azərbaycan Ordusunun yenidən bu ərazilərdə yerləşməsi Xankəndidə və digər ətraf ərazilərdə baş verənləri nəzarətdə saxlamağa imkan verəcək. Ekspertlər, həmçinin vurğulayırlar ki, Azərbaycanı narahat edən məqam bu ərazilərdəki təhlükəsizlik şəraiti və gələcəkdə Ağdam ərazisində aparılacaq infrastruktur layihələrə təhlükə törətmə riskinin olması idi. Xatırladaq ki, fevral ayında Azərbaycan Müdafiə Nazirliyi Tərtər, Xocavənd və Füzulidə yerləşən mövqelərinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən fasilələrlə atəşə tutduğunu xəbər vermişdi. Mart ayının əvvəllərində isə nazirlik bildirmişdi ki, qanunsuz erməni silahlıları martın 8-dən 9-na kimi Azərbaycanın Xocalı və Goranboy rayonlarında yerləşən mövqelərini atəşə tutmuşdular. Təbii ki, bu, belə davam edə bilməzdi və



Azərbaycan bu qanunsuzluğa son qoydu.

Fərrux yüksəkliyinin əhəmiyyətini erməni mütəxəssislər də etiraf edirlər. Məsələn, müxalifətin "Şərəfim var" fraksiyasından olan deputat Tiqran Abramyan Azərbaycan Ordusunun martın 24-də Xocalı inzibati rayonunun Fərrux kəndini və kəndin ətrafındakı strateji əhəmiyyətli Daşbaşı yüksəkliyini nəzarətə götürməsindən narahatlıq keçirərək öz feysbuk səhifəsində yazır ki, azərbaycanlılar Fərrux kəndindən dayaq məntəqəsi kimi istifadə etmiş, dolama yollar çəkmişlər və onların da məqsədi Daşbaşı yüksəkliyinin müxtəlif hissələrinə çatmaq, dayanacaq əldə etmək və fasiləsiz təchizatı təmin etmək üçün onları möhkəmləndirməkdir. Onun sözlərinə görə, çoxlarının ərazi və strategiya baxımından Fərrux kəndinin və Daşbaşı dağ silsiləsinin nə olduğu barədə zəif təsəvvürü var: "Azərbaycan son irəliləyişi zamanı Daşbaşı dağı istiqamətində Fərrux kəndinin inzibati ərazisindən dəfələrlə böyük ərazini nəzarətinə götürüb. Bunu ona görə yazıram ki, bilmədən və ya bilərəkdən bəziləri Fərrux kəndini müzakirə obyektinə, yaxud prinsipial məsələyə çevirir, lakin Daşbaşı silsiləsinin ayrı-ayrı hissələri Fərruxla müqayisədə çox mühüm strateji əhəmiyyətə malikdir".

Erməni deputat bildirir ki, azərbaycanlılar Fərruxdan aralıq zona kimi istifadə ediblər: "Azərbaycan öz qoşunlarını ilkin mövqelərinə qaytarmasa, o zaman bizim belimizi qırmaq üçün hazırda Qarabağın bizim nəzarətimizdə olan hissəsində (Rusiya sülhməramlılarının nəzarət etdiyi Azərbaycan əraziləri – red.) görünməmiş vəziyyət yaranacaq". Maraqlıdır, T.Abrahamyan indi anlayır ki, Azərbaycan Ordusu hələ 2020-ci ildə erməni faşizminin belini qırmışdı?

Beləliklə, Fərrux kəndi və Fərrux yüksəkliyi erməni silahlı dəstələrindən təmizləndi. Əlbəttə, strateji yüksəkliyin azad edilməsi Qarabağın bəzi ərazilərindəki terror ünsürlərindən tam təmizlənənə qədər vaxtaşırı aparılacaq lokal əməliyyatların davamı kimi qiymətləndirilməlidir. Azərbaycan rəhbərliyi bildirir ki, qanunsuz erməni silahlı birləşmələri Qarabağdan çıxarılmalıdır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Özbəkistandan qayıdarkən jurnalistlərin suallarını cavablandırarkən vurğulamışdır ki, Azərbaycan üçtərəfli bəyanatın müddəalarına əməl edir: "Qanunsuz erməni silahlı dəstələrinin Azərbaycanın Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ bölgəsində son zamanlar törətdiyi təxribatlara cavab vermək lazımdır. Erməni birləşmələr Azərbaycan ərazisindən çıxarılmalıdır". Qardaş ölkənin dövlət başçısı diqqətə çardırmışdır ki, Azərbaycan tərəfindən heç bir pozuntu yoxdur: "Üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq, erməni silahlılarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisindən tamamilə çıxarılması təmin edilməlidir".

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***